

**Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə**

# STRATEJİ YOL XƏRİTƏLƏRİ





**“Gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı inkişafı üçün əlavə imkanlar yaradacaq və əminəm ki, Azərbaycan qarşıda gələn illərdə daha da güclü olacaq”.**

İLHAM ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

# STRATEJİ YOL XƏRİTƏLƏRİNİN 1 YANVAR 2019-CU İL TARİXİNƏ İCRA VƏZİYYƏTİ

| | İcra edilmişdir | Qismən icra edilmişdir | İcrası gözlənilir |
|---|---|---|---|
| **ÜMUMİ NƏTİCƏ** | 43% | 9% | 48% |
| Azərbaycan Respublikasının **milli iqtisadiyyat perspektivi** üzrə Strateji Yol Xəritəsi | 47% | 8% | 45% |
| Azərbaycan Respublikasında **maliyyə xidmətlərinin inkişafına** dair Strateji Yol Xəritəsi | 64% | 8% | 28% |
| Azərbaycan Respublikasında **telekommunikasiya və informasiya texnologiyalarının inkişafına** dair Strateji Yol Xəritəsi | 50% | 8% | 42% |
| Azərbaycan Respublikasında **kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına** dair Strateji Yol Xəritəsi | 52% | 11% | 37% |
| Azərbaycan Respublikasında **kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına** dair Strateji Yol Xəritəsi | 47% | 16% | 37% |
| Azərbaycan Respublikasında **kənd təsərrüfatı məhsullarının istehsalına və emalına** dair Strateji Yol Xəritəsi | 37% | 7% | 56% |

# STRATEJİ YOL XƏRİTƏLƏRİNİN 1 YANVAR 2019-CU İL TARİXİNƏ İCRA VƏZİYYƏTİ

## ÜMUMİ NƏTİCƏ




Azərbaycan Respublikasında **logistika və ticarətin inkişafına** dair Strateji Yol Xəritəsi




Azərbaycan Respublikasında **uyğun qiymətə mənzil təminatının inkişafına** dair Strateji Yol Xəritəsi




Azərbaycan Respublikasında **peşə təhsili və təliminin inkişafına** dair Strateji Yol Xəritəsi




Azərbaycan Respublikasında **ağır sənaye və maşınqayırmanın inkişafına** dair Strateji Yol Xəritəsi




Azərbaycan Respublikasında **ixtisaslaşmış turizm sənayesinin inkişafına** dair Strateji Yol Xəritəsi



## ƏSAS İCRAÇI QURUMLARIN PERFORMANSI



# MAKROİQTİSADİYYAT

Azərbaycan Respublikası **Dövlət Neft Fondunun vəsaitlərinin** dövlət büdcəsinə köçürülməsi ilə bağlı **büdcə qaydaları ("qızıl qayda")** təsdiq edilmişdir:

- Neft gəlirlərindən səmərəli istifadə;
- Büdcədə qeyri-neft gəlirlərinin payının artırılması.

(Milli iqtisadiyyat perspektivi üzrə SYX: Prioritet 1.1)

Pul bazası hədəf götürülməklə, **makroiqtisadi sabitliyə** nail olunmuş, **manatın kursu sabitləşdirilmiş**, **inflyasiya optimal həddə** endirilmiş və **strateji valyuta ehtiyatları** əhəmiyyətli dərəcədə artmışdır **(23 faiz)**.

(Milli iqtisadiyyat perspektivi üzrə SYX: Prioritet 1.3)

**Borc strategiyası, ortamüddətli xərclər çərçivəsi** qəbul edilərək, **fiskal dayanıqlılığın** gücləndirilməsi təmin olunmuşdur.

(Milli iqtisadiyyat perspektivi üzrə SYX: Prioritet 1.2)

Bank sektorunda **institusional təsisatlar** yaradılmış, kapitalizasiya, **aktivlərin sağlamlaşdırılması**, **əmanətlərin tam sığortalanması** və **problemli kreditlərin həlli** istiqamətində tədbirlər görülmüşdür.

(Maliyyə xidmətləri üzrə SYX: Prioritet 1.1; 1.2; 3.1; KOS üzrə SYX, Prioritet 2.2)

# BİZNES MÜHİTİ

- **Prezident yanında Apellyasiya Şurası** yaradılmışdır (KOS üzrə SYX: Prioritet 1.5);
- **Dövlət-biznes dialoqu** qurulmuşdur (KOS üzrə SYX: Prioritet 1.7);
- **Kiçik və Orta Biznesin İnkişafı Agentliyi** və **"Enterprise Azerbaijan" portalı** yaradılmaqla kiçik və orta sahibkarlığın inkişafı dəstəklənmişdir (KOS üzrə SYX: Prioritet 1.1; Ağır sənaye üzrə SYX, Prioritet 3.1);
- **Azexport.az və Rəqəmsal Ticarət Qovşağı** platformaları yaradılmış, ticarət nümayəndəlikləri, onlayn ixrac ərizəsi, ixrac missiyaları, ticarət evləri və ixrac subsidiyaları kimi təşviq metodları istifadə edilmişdir (KOS üzrə SYX: Prioritet 3.2);
- Azərbaycanda dünyada ilk dəfə olaraq qeyri-rezidentlərə **m-rezidentlik** və dünyada ikinci dəfə **e-rezidentlik** təqdim olunmuşdur;
- **"Dövlət satınalmalarının vahid internet portalı"** yaradılmış və qanunvericilik təkmilləşdirilmişdir (Biznes mühiti üzrə Tədbirlər Planı: 16.24);
- Sənaye parkları, sənaye məhəllələri, aqroparklar və texnoparkların fəaliyyət dairəsi genişləndirilməklə sahibkarlara əhəmiyyətli vergi, gömrük və digər güzəştlər verilmişdir (KOS üzrə SYX: Prioritet 1.6, Kənd təsərrüfatı üzrə SYX: 2.5);
- İnvestorların maraqlarının qorunması, elektron məhkəmə, biznesə başlama, tikinti icazələri, elektrik şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış və əmlakın qeydiyyatı, müflisləşmə sahəsində əhəmiyyətli islahat tədbirləri həyata keçirilmişdir (KOS üzrə SYX: Prioritet 1.5, 1.8, 2.1, 2.2, 2.3, 24; Biznes mühiti üzrə Tədbirlər Planı: 1.1.1; 5.1.1; 6.1.1; 14.1.1; 15.1.1; 17.1.1);
- Əhəmiyyətli gömrük islahatları aparılmış, o cümlədən, **"Yaşıl Dəhliz" sistemi** tətbiq edilmişdir (Biznes mühiti üzrə Tədbirlər Planı: 11.1.1);
- **Hərtərəfli vergi islahatları** aparılmışdır (Milli iqtisadiyyat perspektivi üzrə SYX: Prioritet 4.1; Biznes mühiti üzrə Tədbirlər Planı: 8.1.1).

## İNFRASTRUKTUR VƏ MEQA-LAYİHƏLƏR

- **Cənub Qaz Dəhlizinin** rəsmi açılışı, **Cənubi Qafqaz** və **TANAP – Trans-Anadolu** qaz boru kəmərlərinin istismara verilməsi təmin olunmuşdur (Neft-qaz üzrə SYX: Prioritet 2.1);
- **Bakı-Tbilisi-Qars** və **Astara-Astara** dəmiryolu xətləri istifadəyə verilmişdir (Logistika üzrə SYX: Prioritet 1.2);
- **"SOCAR Polimer"** və **SOCAR karbamid** zavodları fəaliyyətə başlamışdır (Neft-qaz üzrə SYX: Prioritet 3.2);
- **"Yeni əsrin müqaviləsi"nin** imzalanması Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsasını qoymuşdur;
- Türkiyənin İzmir şəhərində **"Star" neft emalı zavodunun** açılış mərasimi keçirilmişdir (Neft-qaz üzrə SYX: Prioritet 2.2);
- **Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi** fəaliyyətə başlamışdır (Logistika üzrə SYX: Prioritet 1.2).

## SOSİAL SAHƏ

- **İcbari tibbi sığorta** üzrə pilot layihə hazırlanaraq icra edilmiş, icbari tibbi sığortanın bütün ölkədə tətbiqi üçün normativ hüquqi baza hazırlanmış və **2020-ci ildən bütün ölkədə tətbiqi** nəzərdə tutulmuşdur (Maliyyə üzrə SYX: Prioritet 1.3, Telekommunikasiya üzrə SYX: Prioritet 3.2);
- **İşsizlikdən Sığorta Fondu** yaradılmışdır;
- **Məşğulluq strategiyası** qəbul edilmiş, **ünvanlı sosial yardımın** əhatə dairəsi genişləndirilmiş və **özünüməşğulluq proqramının** icrasına başlanılmışdır;
- **Şəhid ailələrinə birdəfəlik ödəmə** verilmiş, **minimum əmək haqqı**, **minimum pensiya**, doktorant və tələbələrin **təqaüdləri**, həmçinin bir sıra **müavinətlər** artırılmışdır.

# 2016–2018-Cİ İLLƏR MÜSBƏT İQTİSADİ GÖSTƏRİCİLƏRLƏ YADDA QALDI

## İLLİK İNFLYASİYA GÖSTƏRİCİLƏRİ (FAİZLƏ)




## STRATEJİ VALYUTA EHTİYATLARI (MLRD. MANATLA) VƏ AZN/USD MƏZƏNNƏSİ




*31 mart 2019-cu il tarixinə

## BÜDCƏ GƏLİRLƏRİ (MLRD. MANATLA)*




## BÜDCƏ XƏRCLƏRİ (MLRD. MANATLA)*




Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı və Maliyyə Nazirliyi

* 2016-cı, 2017-ci və 2018-ci illər üzrə faktiki icra göstəriciləri, 2019-cu il üzrə isə proqnoz göstəricilər verilmişdir.

## QEYRİ-NEFT SEKTORU ÜZRƏ MAL VƏ XİDMƏTLƏRİN İXRACI
(MLRD. ABŞ DOLLARI İLƏ)




## NOMİNAL ÜDM GÖSTƏRİCİSİ (MLRD. MANATLA)




## "DOING BUSINESS" HESABATI




## "İQTİSADİ AZADLIQ" HESABATI




Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı və Dövlət Statistika Komitəsi

# 21 AY QALDI: DAHA HANSI İŞLƏRİ GÖRMƏYİ HƏDƏFLƏYİRİK?

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21

- Biznes mühiti və **Rəqabət məcəlləsi**
- **Ortamüddətli xərclər çərçivəsinə** keçid
- **Korporativ idarəetmənin** tətbiqi
- Prioritet sektorlarda **özəl investisiyaların** cəlbi
- Banklararası bazar və **marketmeyker** institutu
- Maliyyə dərinliyinin **60 faiz** təşkil etməsi
- **Aqrar sığortanın** inkişafı
- **"Elektron Kənd Təsərrüfatı" İnformasiya Sisteminin** ölkə üzrə tam tətbiqi
- Neft maşınqayırmasında **birgə istehsal** sahələri
- **Birbaşa xarici investisiyaların** cəlbi
- **KOS-un ÜDM-də** payının **15 faizə** çatması, **qeyri-neft ixracında** payının **10 faizə** çatması
- Sənayeyönümlü **KOS subyektləri** üçün **model müəssisənin** yaradılması
- **"Lisenziyalar və icazələr"** portalının tam fəaliyyəti
- **"Açıq səma" ("Open Skies")** sazişləri
- Yeni xarici aşağıbüdcəli **("lou-kost")** hava nəqliyyatı şirkətlərinin cəlbi
- İnsan kapitalının inkişafı
- Əmək məhsuldarlığının yüksəldilməsi
- **Təhsil**, o cümlədən **peşə təhsili** islahatları
- **Elektrik enerjisi** sisteminin **modernizasiyası**
- **Kommunal xidmətlər** sektorunda **səmərəliliyin** yüksəldilməsi
- **"Dövlət satınalmalarının vahid internet portalı"nın** bütün dövlət satınalmaları üzrə yeganə satınalma platformasına çevrilməklə tam funksionallığının təmin edilməsi

## QISAMÜDDƏTLİ HƏDƏFLƏR ÜZRƏ

## UZUNMÜDDƏTLİ HƏDƏFLƏR ÜZRƏ



2019 **2020** 2021 **2025**

- İcra təkcə hökumətin deyil, eyni zamanda **cəmiyyətin bütün təbəqələrinin birgə səyi** ilə həyata keçirilməlidir;
- İcraçı qurumlar tərəfindən əsas diqqət sadəcə ayrı-ayrı tədbirlərin icrasına deyil, 2020-ci il üzrə müəyyən edilmiş **hədəflərin əldə olunmasına** yönəldilməli, **nəticə əsaslı yanaşma** tətbiq olunmalıdır;
- Sahibkarlarımız **şəffaf fəaliyyət** göstərməli, **məsuliyyətli borclanma** prinsipinə əməl etməli, **təşəbbüskarlıq** göstərməklə dövlətin yaratdığı **əlverişli mühit və infrastrukturdan səmərəli istifadə** etməklə məhsul istehsalını, o cümlədən gəlirlərini artırmalıdırlar;
- Beynəlxalq təşkilatlar və aparıcı konsaltinq qurumları ilə əməkdaşlıq əlaqələri daha da genişləndirilməlidir.

- **Təşkilati tədbirlər** görülməli;
- **Qlobal, regional** və yerli **trendlər**, **çağırışlar**, **risklər** və **təhdidlər** nəzərə alınmaqla **uzunmüddətli baxışlar** yenidən dəqiqləşdirilməli;
- **Uzunmüddətli baxışlara** nail olmaq üçün 2021-2025-ci illər üzrə nəticəəsaslı strategiya sənədləri hazırlanmalıdır.

DİQQƏTİNİZƏ GÖRƏ TƏŞƏKKÜR EDİRİK.